ISSN 2518-7538

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

# DİL VƏ ƏDƏBİYYAT

# LANGUAGE AND LITERATURE

# ЯЗЫК И ЛИТЕРАТУРА

**X CİLD, № 2, 2020**
**VOL X, № 2, 2020**
**TOM X, № 2, 2020**

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol № 10 R) dövri elmi nəşr kimi təsdiq edilmişdir.*

# Dil və Ədəbiyyat


**Baş redaktor**
*fil.e.d., prof.***Zeynalova Sevinc –** Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı

**Baş redaktorun müavini**
*fil.e.d., prof.***Əliyeva Həmidə –** Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı

**Məsul katib**
*fil.f.d., dos.***Allahverdiyeva Aytən**– Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı

**Korrektor**
**Aslanova Xatirə –** Elm şöbəsi, Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı

**REDAKSİYA HEYƏTİ:**

1. *fil.e.d., prof.***Abdullayev Sərxan –** Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
2. *fil.f.d.,dos.***Əhmədov Fazil** – Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
3. *fil.e.d., prof.***Məmmədov Azad** – Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
4. *fil.f.d., dos.***Həsənov Seyfəl** – Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
5. *fil.e.d., prof.***Xəlilli Şahin –** Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
6. *fil.f.d., dos.***İbrahim Ülfət** – Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
7. *fil.f.d., dos.***Qəribova Jalə –** Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
8. *fil.e.d.***Sadıqova Gülnarə –** Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
9. *fil.e.d., prof.***Vəliyeva Nigar –** Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
10. *fil.e.d., prof.***Cahangirov Fikrət –**Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
11. *ped.f.d., dos.***Şirəliyev Əmralı** – Azərbaycan Dillər Universiteti , Bakı
12. *ped.f.d., dos.* **İmanova Sevda –** Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
13. *fil.e.d., prof.***Cəfərova Leyla –** Azərbaycan Dillər Universiteti, Azərbaycan, Bakı
14. *fil.e.d., prof.***Mahmudov Məsud –** Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Azərbaycan, Bakı
15. *fil.e.d., prof.***Osmanlı Sara –** Azərbaycan Milli Elmlər Akademiyası (AMEA), Azərbaycan, Bakı
16. *fil.e.d., prof.***Abbasova Afət –** Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan, Bakı

**BEYNALXALQ MƏSLƏHƏTÇİLƏR:**

17. *fil.e.d., prof.***Kövecses Zoltan –** Etvas Lorand Universiteti, Macarıstan, Budapeşt
18. *fil.e.d., prof.***Levandovska Barbara –** Konin Dövlət Tətbiqi Elmlər Universiteti, Polşa, Varşava
19. *fil.e.d., prof.***Miljkoviç Emma –** Belqrad Universiteti, Serbiya
20. **Peart İan –** "Visions of Azerbaijan" jurnalı, Böyük Britaniya,Vulverhempton
21. *fil.e.d., prof.***Vorobyova Olqa –** Kiyev Milli Dilçilik Universiteti, Ukrayna, Kiyev
22. *fil.e.d., prof.***Vəfa Kazdal –** Azərbaycan Diplomatik Akademiyası (ADA Universiteti), Azərbaycan, Bakı
23. *Dr.***Svetlana Kurtes, –** Madeira Universiteti, Portuqaliya

# Language and Literature

**Editor – in- chief**
**Zeynalova Sevinj,** *D.Sc., professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku

**Deputy editor**
**Aliyeva Hamida,** *D.Sc.,* Azerbaijan University of Languages, Azerbaijan, Baku

**Managing editor**
**Allahverdiyeva Ayten,** *PhD, associate professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku

**Proofreader**
**Aslanova Khatira,** *Senior research fellow,* Azerbaijan University ofLanguages, Azerbaijan, Baku

**EDİTORİAL BOARD:**

1. **Abdullayev Sarkhan,** *D.Sc., professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
2. **Ahmedov Fazil,** *PhD, associate professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
3. **Mammadov Azad,** *D.Sc., professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
4. **Hasanov Seyfal,** *professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
5. **Khalilli Shahin,** *D.Sc., professor,* AzerbaijanUniversityofLanguages, Azerbaijan, Baku
6. **İbrahim Ulfat,** *PhD, associate professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
7. **Garibova Jala,** *PhD, associate professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
8. **Sadigova Gulnara,** *D.Sc.,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
9. **Valiyeva Nigar,** *D.Sc., professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
10. **Cahangirov Fikrat,** *D.Sc., professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
11. **Shiraliev Amrali,** *PhD ,associate professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
12. **İmanova Sevda,** *PhD, associate professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
13. **Cafarova Leyla,** *D.Sc., professor,* Azerbaijan University of Languages, Azerbaijan, Baku
14. **Mahmudov Masud,** *D.Sc., professor,* Azerbaijan National Academy of Sciences, Azerbaijan, Baku
15. **Osmanli Sara,** *D.Sc., professor,* Azerbaijan National Academy of Sciences (ANAS), Azerbaijan, Baku
16. **AbbasovaAfat,** *D.Sc., professor,*Azerbaijan State Economic University, (UNEC) Azerbaijan, Baku

**INTERNATIONAL ADVISORY BOARD:**

17. **Zoltan Kövecses**, *PhD, DLitt, Professor,* Eötvös Lorand University, Hungary, Budapest
18. **Levandovska Barbara,** *D.Sc., professor,* Konin State University of Applied Sciences, Poland, Warsaw
19. **Mijikovich Emma,** *D.Sc., professor,* Belgrade University, Serbia, Belgrade
20. **Peart Ian,** *Visions of Azerbaijan magazine,* UnitedKingdom, Wolverhampton
21. **Vorobeva Olqa,** *D.Sc., professor,* Kyiv National Linguistic University, The Ukraine, Kyiv
22. **Vafa Kazdal,** *D.Sc., professor,* Azerbaijan Diplomatic Academy (ADA University), Azerbaijan, Baku
23. *Dr.***Svetlana Kurtes,** University of Madeira, Portugal

# Язык и литература

**Главный редактор**
**Зейналова Севиндж**–*д.ф.н., проф.,* Азербайджанский университет языков, Баку

**Заместитель главного редактора**
**Алиева Гамида** – *д.ф.н., проф.* Азербайджанский университет языков, Баку

**Ответственный секретарь**
Аллахвердиева Айтен– *к.фил.н.,доц.,*Азербайджанский университет языков, Баку

**Корректор**
**Асланова Хатира**– отдел по науке,Азербайджанский университет языков, Баку

**РЕДАКЦИОННЫЙ СОВЕТ:**

1. **АбдуллаевСархан** – *д.ф.н., проф.,*Азербайджанский университет языков, Баку
2. **Ахмедов Фазил**–*д.фил.ф ., доц.,*Азербайджанский университет языков, Баку
3. **Мамедов Азад** –*д.ф.н., проф.,*Азербайджанский университет языков, Баку
4. **Гасанов Сейфал**–*д.фил.ф ., доц.,*Азербайджанский университет языков, Баку
5. **Халилли Шахин**–*д.ф.н., проф.,* Азербайджанский университет языков, Баку
6. **ИбрагимУльфат**–*к.фил.н., доц.,*Азербайджанский университет языков, Баку
7. **Гарибова Жаля**–*к.фил.н., доц.,*Азербайджанский университет языков, Баку
8. **Садыгова Гюльнара**–*д.ф.н.,*Азербайджанский университет языков, Баку
9. **Велиева Нигяр**–*д.ф.н., проф.,*Азербайджанский университет языков, Баку
10. **Джахангиров Фикрат**–*д.ф.н., проф.,*Азербайджанский университет языков, Баку
11. **Ширалиев Амралы**–*д.ф.н., проф.,*Азербайджанский университет языков, Баку
12. **Иманова Севда**–*к.пед.н., доц.,*Азербайджанский университет языков, Баку
13. **ДжафароваЛейла**–*д.ф.н., проф.,* Азербайджанский университет языков, Баку
14. **Махмудов Масуд**–*д.ф.н., проф.,* Национальная академия наук Азербайджана (НАНА), Баку
15. **Османлы Сара** –*д.ф.н., проф.,*Национальная академия наук Азербайджана (НАНА), Баку
16. **Афат Аббасова** –*д.ф.н., проф.,* Азербайджанский Государственный Экономический Университет (UNEC), Баку

**ЗАРУБЕЖНЫЕ КОНСУЛЬТАНТЫ:**

17. **Золтан Кевечес** –*д.ф.н., проф.,* университет Этвас Лоранд**,** Будапешт
18. **Левандовски Барбара** – *проф.* Государственный университет прикладных наук в Конине, Польша
19. **Милкович Эмма**–*проф.* Белградский университет, Сербия
20. **Пэарт Иан**–*редактор журнала* “ VisionsofAzerbaijan” Великобритания, Вулверхемптон
21. **Воробьева Ольга** –*проф,*Киевский национальныйлингвистическийуниверситет, Украина
22. **Вафа Каздал**–*д.ф.н., проф.,* Азербайджанская дипломатическая академия (университет АДА), Баку
23. *Др.***Светлана Куртес**, – Университет Мадейра, Португалия

# MÜNDƏRİCAT

## DİLÇİLİK


***Gülşən Əhmədova (ADU)***
ALMAN DİLİNDƏ TƏYİN BUDAQ CÜMLƏLƏRİNİN TRANSFORMASİYA İMKANLARI ........................................................11
***Nigar Mədətova (ADU)***
ƏŞYAVİ-MƏNTİQİ VƏ EMOSİONAL MƏNALARIN İNTERAKSİYASINA ƏSASLANAN ÜSLUBİ VASİTƏLƏRİN NATİQ NİTQİNDƏ İSTİFADƏ OLUNMASI..........................................................................................19
***Südabə Nuriyeva (AMEA)***
DİLLƏRİN QARŞILIQLI ZƏNGİNLƏŞMƏSİNDƏ ALINMALAR VƏ ONLARIN LÜĞƏT FONDUNA TƏSİRİ ..................................................27
***Təranə Məmmədova (ADU)***
HÜQUQİ MƏTNLƏRİN TƏRCÜMƏSİNDƏ TERMİNOLOJİ EKVİVALENTLİK PROBLEMİ. SEMİOTİK YANAŞMA ............................34
***Nərgiz Səlimova (ADU)***
MÜASİR İNGİLİS DİLİNDƏ KOMPÜTER SLENQİ ....................................40
***Lalə Əfəndiyeva (ADU)***
GERMANİSTİKADA SEMANTİK ARAŞDIRMALAR ..................................51
***Pərvanə Xanizadə (ADU)***
MÜASİR FRANSIZ DİLİNDƏ HÜQUQİ DİSKURSUN METODOLOJİ NÜVƏSİ ...........................................................................................57
***Sabir Əliyev (ADU)***
BƏDİİ TƏRCÜMƏDƏ ADEKVATLIQ PROBLEMİ (İngilis dilindən Azərbaycan dilinə olunmuş tərcümələr əsasında) ...................62


## ƏDƏBİYYAT


***Səbriyyə İsmizadə (ADU)***
TED ÇANIN "SƏNİN HƏYAT TARİXÇƏN" ƏSƏRİNDƏ ELMİ FANTASTİKA ..........................................................................................68
***İlahə Məcidova (ADU)***
ƏDƏBİ-BƏDİİ FİKİRDƏ UTOPİYADAN ANTİUTOPİYAYA KEÇİD .......75
***Vüsalə Nəbiyeva (AMEA-nin Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu)***
XX ƏSR AZƏRBAYCAN VƏ İNGİLİS TARİXİ NƏSRİNDƏ QADIN OBRAZLARI (Əzizə Cəfərzadə və Meri Styuartın yaradıcılıqları əsasında).....81

## METODİKA

*Nailə* **Ağayeva** ***(ADU)***
LEKSİKANIN SİSTEM ŞƏKLİNDƏ ÖYRƏDİLMƏSİNƏ DAİR..................91
***Nüşabə Həsənova (ADU)***
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ "İKEA EFFEKTİ"..................................96

## ELMİ DİSPUT

***Ülfət Bədəlbəyli (BDU)***
İVO ANDRİÇ ƏSƏRLƏRİNDƏ "KÖRPÜ" MOTİVLƏRİ.............................103

# СОДЕРЖАНИЕ

## ЛИНГВИСТИКА

*Гюльшан Ахмедова (АУЯ)*
ВОЗМОЖНОСТИ ТРАНСФОРМАЦИИ ОПРЕДЕЛИТЕЛЬНЫХ ПРИДАТОЧНЫХ ПРЕДЛОЖЕНИЙ В-НЕМЕЦКОМ ЯЗЫКЕ…………....11
*Нигяр Мадатова (АУЯ)*
СТИЛИСТИЧЕСКОЕ ИСПОЛЬЗОВАНИЕ В ОРАТОРСКОЙ РЕЧИ ПРИЕМОВ, ПОСТРОЕННЫХ НА ИНТЕРАКЦИИ ПРЕДМЕТНО-ЛОГИЧЕСКИХ И ЭМОЦИОНАЛЬНЫХ ЗНАЧЕНИЙ…………………......19
*Судаба Нуриева (НАН Азербайджана)*
РОЛЬ ЗАИМСТВОВАННЫХ СЛОВ ВО ВЗАИМООБОГАЩЕНИИ ЯЗЫКОВ И ИХ ВЛИЯНИЕ НА СЛОВАРНЫЙ ФОНД «ПРИНИМАЮЩЕГО» ЯЗЫКА……………………………………........…27
*Тарана Мамедова (АУЯ)*
ТЕРМИНОЛОГИЧЕСКАЯ ЭКВИВАЛЕНТНОСТЬ В ПЕРЕВОДЕ ЮРИДИЧЕСКИХ ТЕКСТОВ. СЕМИОТИЧЕСКИЙ ПОДХОД……….….…34
*Наргиз Салимова (АУЯ)*
КОМПЬЮТЕРНЫЕ СЛЕНГИ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ………………………………………………………………..….40
*Лала Эфендиева (АУЯ)*
СЕМАНТИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ГЕРМАНИСТИКЕ..................51
*Парвана Ханызада (АУЯ)*
МЕТОДОЛОГИЧЕСКОЕ ЯДРО ЮРИДИЧЕСКОГО ДИСКУРСА В СОВРЕМЕННОМ ФРАНЦУЗСКОМ ЯЗЫКЕ……………………….......57
*Сабир Алиев (АУЯ)*
ПРОБЛЕМА АДЕКВАТНОСТИ ХУДОЖЕСТВЕННОГО ПЕРЕВОДА (на основе переводов с английского языка на азербайджанский)……...…62

## ЛИТЕРАТУРА

*Сабрия Исмизаде (АУЯ)*
НАУЧНАЯ ФАНТАСТИКА В ПОВЕСТИ ТЭЕДА ЧАНА «ИСТОРИЯ ТВОЕЙ ЖИЗНИ»…………………………………………………...……....68
*Илаха Мажидова (АУЯ)*
ПЕРЕХОД ОТ УТОПИИ К АНТИУТОПИИ В ЛИТЕРАТУРНО-ХУДОЖЕСТВЕННОЙ МЫСЛИ………………………………….........…75

*Вюсаля Набиева (НАН Азербайджана)*
ЖЕНСКИЕ ОБРАЗЫ В АЗЕРБАЙДЖАНСКОЙ И АНГЛИЙСКОЙ ИСТОРИЧЕСКОЙ ПРОЗЕ XX ВЕКА (НА ПРИМЕРЕ ТВОРЧЕСТВА АЗИЗЫ ДЖАФАРЗАДЕ И МЭРИ СТЮАРТ)…………………….....………81

**МЕТОДИКА**

*Наиля Агаева (АУЯ)*
К ВОПРОСУ ОБУЧЕНИЯ ЛЕКСИКЕ КАК СИСТЕМЕ……………...........91
*Нушабе Гасанова (АУЯ)*
"ЭФФЕКТ ИКЕА" В ОБУЧЕНИИ ИНОСТРАННЫМ ЯЗЫКАМ………...96

**НАУЧНЫЙ ДИСПУТ**

*Ульфат Бадалбейли (БГУ)*
МОТИВ «МОСТА» В ТВОРЧЕСТВЕ ИВО АНДРИЧА…………………..103

## CONTENTS

### LINGUISTICS

*Gulshan Ahmedova (AUL)*
POSSIBILITIES OF TRANSFORMATION OF ATTRIBUTIVE SUBORDINATE CLAUSES IN GERMAN......................................................11
*Nigar Madatova (AUL)*
STYLISTIC USE OF EXPRESSIVE MEANS BASED ON THE INTERACTION OF LOGICAL AND EMOTIVE MEANINGS IN OTATORY SPEECH..............................................................19
*Sudaba Nuriyeva (ANAS)*
MASTERING THE PROCESS OF MUTUAL ENRICHMENT OF LANGUAGES AND THEIR IMPACT ON LEXICOGRAPHY........................27
*Tarana Mammadova (AUL)*
TERMINOLOGICAL EQUIVALENCE IN LEGAL TRANSLATION. SEMIOTIC APPROACH...........................................................................34
*Nergiz Salimova (AUL)*
COMPUTER SLANGS IN MODERN ENGLISH............................................40
*Lala Efendiyeva (AUL)*
SEMANTIC RESEARCH IN GERMANISTCS................................................51
*Parvana Xanizade (AUL)*
METHODOLOGICAL CORE OF LEGAL DISCOURSE IN MODERN FRENCH LANGUAGE..........................................................................57

### LITERATURE

*SabirAliyev (AUL)*
PROBLEM OF ADEQUACY IN LITERARY TRANSLATION (on the basis of translations from English into Azerbaijani)...............................62
*Sebriyye İsmizade (AUL)*
SCIENCE FICTION IN TED CHIANG`S “STORY OF YOUR LIFE”............68
*Ilaha Majidova (AUL)*
TRANSITION FROM UTOPIA TO DYSTOPIA IN LITERARY THOUGHT..........................................................................................75
*Vusala Nabiyeva (ANAS)*
WOMEN IMAGES IN AZERBAIJANI AND ENGLISH HISTORICAL PROSE OF THE XX CENTURY (BASED ON THE WORKS OF AZIZA JAFARZADEH AND MARY STEWART)..........................................81

## METHODICS

*Naila Agayeva (AUL)*
ON the PROBLEM of TEACHING LEXICS as a SYSTEM.............................91
*Nushabe Hasanova (AUL)*
IKEA EFFECT IN TEACHING FOREIGN LANGUAGES..............................96

## SCIENTIFIC DISPUTE

*Ulfat Badalbeyli (BSU)*
"BRIDGE" MOTIV IN IVO ANDRIĆ'S CREATIVE WORK.......................103

UOT 811.111

**Nərgiz Səlimova**
***ADU***
***salimovanargiz.adu@gamail.com***

# MÜASİR İNGİLİS DİLİNDƏ KOMPÜTER SLENQİ

**Açar sözlər:** *slenq, kompüter, terminologiya.*
**Key words:** *slang, computer, terminology.*
**Ключевые слова:** *сленг, компьютер, терминология.*

İngilis slenqi müasir ingilis danışıq leksikasının ən geniş yayılmış sahələrindən biridir və o, son illər bədii ədəbiyyata, kinoya, ümumiyyətlə incəsənətin bir çox sahələrinə aktiv şəkildə daxil olmaqdadır.

Bir neçə il (təxminən 5 il) bundan əvvəl *of cours* 'əlbəttə', *to take part* 'iştirak etmək', *to get up* 'ayağa qalxmaq' və bir çox başqa indi geniş şəkildə işlədilən söz və ifadələr slenq sözlər hesab edilirdi. İngilisdilli mühitdə yaşamayan insanlar üçün bəzən ingilis slenqini dəqiqliyi ilə anlamaq və gülünc vəziyyətə düşməmək üçün ingilisdilli insana müraciət etməsinə ehtiyac duyulur [6].

Müasir ingilis slenqinin ən çox yayıldığı sahələrdən biri kompüter sahəsidir. İlk kompüterlər keçən əsrin 50-ci illərində yaranmağa başlayıb və bu sahə tədricən inkişaf etdikcə, onlarla işləyən insanlar indi artıq hamıya məlum olan böyük söz ehtiyatı əldə ediblər. Lakin şəxsi kompüterlərin yayılmağa başladığı bir dövrə, yəni 1988-ci ilə qədər bu dil yalnız məhdud dairədə işlədilir, cəmiyyət üçün qapalı hesab edilirdi. Keçən əsrin 80-ci illərindən bu söz və ifadələr və daha yeniləri artıq geniş xalq kütlələri tərəfindən işlədilməyə başladı. Hal-hazırda bütün dünyada kompüter texnologiyasına, hesablama texnikasına böyük diqqət yönəldilib. Bu səbəbdən də, ən çox yeni yaranmış sözlər kompüter texnologiyası sahəsindədir. Proqramçıların və kompüter texnikası işləyib-hazırlayanların qapalı leksikonundakı yeni sözlər ümumişlək leksika sırasına keçməyə başlayır, belə ki, kompüterlə işləyən insanların da sayı artır. Bununla yanaşı, linqvistik baxımdan daha bir qanunauyğun proses baş verir, spesifik kompüter slenqi yaranır.

Kompüter texnikası dildə yeni semantik sahəyə malik kompüter terminlərinin yaranmasına səbəb olub: *e-mail electronic mail* – 'kompüterdə yığılmış və qəbuledici kompüterə telefon xətti vasitəsilə göndərilən məktub', *spread sheet* 'kompüter proqramı' və s. Kompüter sahəsində işləyənlə-

rin özünəməxsus jarqonu yaranmağa başladı, məsələn, *brain-box* 'kompüter', *glitch* 'proqramın qəfildən pozulması' və s. [2, s.143]

Artıq dəfələrlə qeyd olunduğu kimi, slenq əsasən şifahi nitqdə (danışıq dilində) yaranan və işlədilən, emosional çalarlı, parlaq familyar-emosional rəngə malik olan, ümumişlək söz və ifadələrdir. Bu dil canlı və hərəkidir, zamanla ayaqlaşır və cəmiyyətdə baş verən bütün dəyişikliklərə reaksiya verir. Slenq ümumi və xüsusi olur.

Bəs kompüter slenqi ilə digər slenq növlərinin fərqi nədədir? Kompüter slenqinə aid olan sözlər, ilk növbədə, eyni peşəyə malik olan insanlar – yəni proqramçılar və ya sadəcə kompüterdən istifadə edən insanlar arasında ünsiyyət qurmaq məqsədilə işlədilir. Eyni zamanda onlar peşə terminlərinə sinonim olaraq işlədilirlər, lakin bu terminlərdən emosional çalarlarına görə fərqlənirlər. İkincisi, kompüter slenqizmləri yalnız kompüter aləmində həmin mənanı verirlər, kompüterə aid olmayan sahədə işlədildikdə onların mənası dəyişilir və başqaları tərəfindən anlaşılmaya bilər. Üçüncüsü, bu leksikada vulqar sözlərə də rast gəlinir.

Beləliklə, kompüter slenqi gündəlik həyatda kompüterlə birbaşa əlaqəsi olan insanlar tərəfindən işlədilən, peşə leksikasını əvəz edən, bəzən kobud-familyar çalara malik olan danışıq dili ilə fərqlənən söz və ifadələrdir.

Dildə geniş işləklik qazanmış sözlər informasiya vahidlərini bildirmək məqsədilə kompüter dilində terminoloji məna əldə ediblər. Bəzən terminləşmə metaforik keçid, yəni məcazlaşma vasitəsilə baş verir. Məsələn, kompüter terminologiyasındakı *to click* 'siçanın düyməsini basmaq' ümumişlək sözü metaforikləşmə nəticəsində terminə çevrilmişdir. Siçanın düyməsini basarkən eşidilən çıkkıltı səsi ilə oxşarlıq metaforik keçidə səbəb olmuşdur [1,s.1036]

Müasir dövrdə kompüter slenqinin lüğət tərkibi zəngin söz ehtiyatına malikdir. Ona görə də kompüter slenqində oxşar və ya yaxın mənalı sözlərə – sinonimlərə tez-tez rast gəlinir. Nümunə kimi bu sinonimik cərgəni misal göstərmək olar: *computer 'kompüter', desktop 'iş masası', home-box 'ev kompüteri', PC* (< *Personal computer* ) 'şəxsi kompüter' [12, s.105].

Təbii ki, söz dildə daha çox işləklik qazandıqca onun daha çox sinonimləri olur. Kompüterin hissələrini bildirən sözlərin sinonimləri daha çoxdur. Sinonimlərin əmələ gəlməsi onunla əlaqədardır ki, bu terminlərin istifadə olunduğu ölkənin müxtəlif bölgələrində (bu halda ABŞ-dan söhbət gedir, belə ki, məhz bu ölkə kompüterin və kompüter terminologiyasının vətənidir) eyni termin üçün fərqli slenq analoqlar yaranır. Onlar müxtəlif üsullarla ingilis dilini müxtəlif səviyyədə bilən insanlar tərəfindən yarana bilər-

lər. Ona görə də ayrı-ayrı bölgələrdən olan kompüter istifadəçiləri bir-birini anlamaya da bilərlər. Kompüter slenqi lüğətlərinin tərtibatçıları üçün əsas problem – hər bir terminin imkan daxilində daha çox sinonimlərini tapıb yazmaqdır.

Kompüter slenqində müxtəlif frazeoloji birləşmələr də mövcuddur. Onların arasında feli, eləcə də ismi birləşmələrə rast gəlmək olar:

*to polish glitch* – hərfi mənası < ‘çətinliyi cilalamaq’ (< programı qaydaya salmaq), *three-finger salute* – hərfi mənası < ‘üçbarmaqlı salyut' (< Ctrl-Alt-Del düymələri ilə çıxış), *wind of change* – hərfi mənası < çevriliş küləyi (< əməliyyat sisteminin dəyişdirilməsi).

Bu frazeoloji birləşmələrin hamısı assosiativ keçid əsasında yaranmışdır. Bəzən belə hallara da rast gəlinir ki, terminoloji leksika müxtəlif situasiyalarda kompüterə aid olmayan geniş məcazi mənada işlədilir. Məsələn, kiminsə xahişini yerinə yetirmək istəməyən proqramçı deyir: *Can`t open ‘açılmır’* və ya *Invalid request ‘yanlış tələb’*. Kompüter də qarşıya qoyulmuş məsələni həll edə bilməyəndə onun ekranında eyni sözlər görünür.

Yarandığı vaxtdan bu günə qədər böyük inkişaf yolu keçmiş fərdi kompüterlər daha da təkmilləşdirilmiş, yeni cihazlar, yeni proqram təchizatı və yeni texnologiyalar yaranmışdır. Kompüter istifadəçiləri sadə qurğu və texnologiyadan daha müasir və mürəkkəb avadanlığa keçmişlər. Bununla bərabər, kompüter istifadəçilərinin söz ehtiyatı da dəyişmişdir. Daim hərəki və canlı olan kompüter slenqi də xeyli zənginləşmişdir. Köhnə texnologiyanın yenisi ilə əvəz olunması nəticəsində köhnə sözlər istifadədən çıxır, unudulur, onların yerinə yeniləri gəlir. Bu proses, elə kompüterlərin inkişafı kimi, çox sürətlə baş verir. Əgər başqa bir sahənin slenqində söz on illərlə yaşaya bilərsə, kompüter slenqində son on il ərzində yüksək texniki inkişaf nəticəsində inanılmaz sayda söz yaranmış və unudulmuşdur. Məsələn, indi gənc kompüter istifadəçiləri bu cür sözlərdən istifadə etmirlər: *Color Graphic Adapter* ‘rəngli qrafik adaptoru’, *High Density Diskette ‘yüksək sıxlıq disketi’, Math Co-processor* ‘riyazi prosessor’.

Kompüter texnologiyasının əsasən ingilisdilli ölkələrdə yaranması faktını nəzərə alaraq qeyd etməliyik ki, kompüter slenqində başqa dillərdən alınma sözlərinə, demək olar ki, rast gəlinmir. Lakin ingilis slenqinin başqa sahələrindən kompüter slenqinə keçmiş sözlər çoxdur. Məsələn, *driver* gənclərin slenqində ‘maqnitofon’ mənasını verir və bu söz kompüter slenqinə keçərək ‘informasiyanı maqnit lentdə saxlayan qurğu’ mənasında işlədilir. Eləcə də, sürücülərin, cinayətkarların və s. slenqindən kompüter slenqinə keçən sözlərə rast gəlinir. Məsələn, *microassembler programmer ‘mikro*

*montaj proqramı', to connect two computers* 'iki kompüteri əlaqələndirmək', *Pentium-2000* 'Pentium-2000' və s [13].

İngilis kompüter slenqində elə sözlər vardır ki, onlar qeyri-peşəkar sahənin realilərini bildirir, lakin, əsasən, kompüter istifadəçiləri tərəfindən işlədilirlər. Kompüter slenqində danışıq dilinin başqa sahələrin (məsələn, jarqonun, vulqarizmlərin və s.) vahidlərinə də rast gəlinir ki, bu da onların slenqə göstərdiyi təsirdən xəbər verir. Beləliklə, kompüter slenqi danışıq dilinin müxtəlif sahələrinin qarşılıqlı təsirini və bu sahələrin leksik vahidlərinin bir-birinə keçməsini sübut edən əyani bir nümunədir [4].

Kompüter slenqi aşağıdakı funksiyalara malikdir:

a) ekspressiv,

b) emosional-qiymətləndirici,

c) dəqiqləşdirmə və sistemləşdirmə funksiyası,

ç) nominativ funksiya.

Kompüter slenqizmlərinin emosional-qiymətləndirici funksiyası üstünlük təşkil edir. Kompüter slenqinin nominativ funksiyası onunla şərtləndirilir ki, kompüter texnologiyasının terminoloji sahəsinin inkişafı (əsasən telekommunikasiya sahəsində) kompüter sahəsinin özünün inkişafından geri qalır və terminologiyanın nominativ funksiyasını slenq öz üzərinə götürür. İngilis kompüter slenqində aşağıdakı əsas semantik-tematik qruplar ayırd edilir:

1. Kompüter sahəsi ilə əlaqəsi olan insan. Kompüter sahəsində nəyəsə üstünlük verən insan,
2. Kompüterlə iş, kompüterlə işləmək sahəsində çətinliklər və uğursuzluq,
3. Kompüterin tərkib hissələri,
4. Proqram məhsullarının, əmrlərin, faylların adları,kompüter oyunları,
5. İnternet. [6]

Birinci qrupa aid olan sözlər daha çox kontekst daxilində başa düşülə bilər. Belə ki, bu cür söz və ifadələr bir çox sahələrin kompüter mütəxəssislərinin, eləcə də istifadəçilərinin adlandırılmasını əhatə edir. Bu qrup şaxəli sistemə malikdir:

a) peşə terminləri ilə paralel şəkildə işlədilən yumoristik səciyyəli ikinci dərəcəli adlar: *system jock, sys-frog, softy sözləri 'sistem xətası' mənasında işlənir.*

b) terminologiyada analoqu olmayan və kompüterlə əlaqəli şəxslərin daha dəqiq tipologiyasını göstərən nominasiyalar: *doco, netter, tourist* sözlərinin hər üçü '*internetdən istifadə edən insan*' mənasında işlədilir.

c) qiymətləndirici slenqizmlər*: flamer, pain in the net, script kiddie, read-only user, weasel, twink* və s. Bu sözlər tipoloji cəhətdən qeyri-peşəkarlıq əlamətlərini ifadə edir. Onların əksi olaraq aşağıdakı sözlər kompüter işində yüksək ustalıq, peşəkarlıq səviyyəsini göstərir: *guru, wizard, superprogrammer*. *UNIX weenie* 'hər hansı əməliyyat sisteminin icraçısı', *middie və ya quake* 'kompüter oyunları həvəskarı' və s. bu qrup slenqizmlərə aiddir. İngilis kompüter slenqində kompüterlə həddindən artiq maraqlanan insanları ifadə edən sinonimik sözlərə də rast gəlinir: *computer geek, gweep* 'kompüterdən başqa heç nə görməyən, kompüterdən başı xarab olmuş' və s.

İkinci qrupa daxil olan sözlər insanın kompüterlə əlaqədar gördüyü işi, məsələn, *to beam* 'elektron poçtu ilə göndərmək' və kompüterlə bağlı işin icra etməsini bildirən leksemlər, məsələn, *to grovel* 'proqramın zəif sürətlə, lakin məhsuldar hərəkəti'ni ifadə edir. Bu qrupun bəzi vahidləri mənaca birinci qrupun vahidləri ilə uyğun gəlir.

Beləliklə, müxtəlif tematik qrupların semantik cəhətdən oxşar olan vahidləri bir-biri ilə müxtəlif sistemlərin elementləri kimi, vahid slenq sistemində birləşirlər. İngilis kompüter slenqində həmçinin səhvlər tipologiyası da mövcuddur. Məsələn, "*-o*" slenq suffiksi vasitəsilə yaranan *thinko, braino, typo, mouso, scanno* və s. leksemləri insanın, onun düşüncə tərzinin, çapolunma prosesinin, siçanın və skanerin səhvlərini ifadə edirlər. Bu qrupa kompüteri lazımi tərzdə işlətməyi bacarmayan istifadəçiyə aid sözlər də aiddir, məsələn, *chomper, loser* və s.

Onu da qeyd etmək lazımdır ki, ingilis kompüter slenqində məhz bu t-ematik qrupun leksikası ən geniş yayılmış hesab edilir.

Üçüncü qrup slenqizmlər kompüterin tərkib hissələrinin adlarını əhatə edir. Bütün bu anlayışların terminologiyada paralel analoqları var. Lakin bu qrupa aid olan hər hansı bir sözlə ona uyğun olan termini tutuşdursaq, görərik ki, onlar mənaca tamamilə uyğun gəlsələr də slenqizm əlavə ekspressiv və qiymətləndirici çalarlara malikdir. Burada aparat təchizatının keyfiyyətinin, onun funksionallığının və müasirliyinin qiymətləndirilməsi aparılır: *steam-powered iron* 'köhnə, lakin keyfiyyətli qurğu'. Qiymətləndirici slenqizmlərdən əlavə bu qrupda ekspressiv vahidlərə də rast gəlinir. Bu, slenqizmlərdən istifadə edənlərin adi sözlərə bir rəngarənglik, yenilik vermək cəhdini əks etdirən söz oyununun nəticəsidir: *toaster* 'əlavə qurğu' və s.

Dördüncü qrupa zarafat çalarlı semantikaya malik olan yumoristik sözlər aiddir. Məsələn, *tarball* 'genişləndirilə bilən fayllar arxivi', *threefinger salute* 'yenidən yüklənmə əmri' və s. Proqram təchizatını ifadə

edən müxtəlif slenqizmlər ifadəli emosional-qiymətləndirici çalara malikdir. Məsələn: *broken – flaky – dodgy – fragile - brittle / solid – robust – bulletproof – armor – plated.* Bu misalda müxtəlif proqramların mənfi və ya müsbət tərəfini bildirmək üçün istifadə olunan sifət-slenqizmlərin siyahısı verilir.

Dördüncü qrupun tematikası həmçinin müxtəlif əməliyyat sistemlərinin adlarını əhatə edir. Kompüter bazarındakı əməliyyat sistemləri arasındakı rəqabət bu cür slenqizmlərin yaranmasına səbəb olmuşdur: *Windoze, weenix* və s.

Kompüter oyunlarını bildirən leksika daha dar və məhdud sahəyə malikdir, belə ki, kompüter oyunları ilə məşğul olanlar bu sahədəki slenqizmlərin əksər hissəsini bilmirlər. Yalnız bəzi kompüter oyunları adlarının slenq forması məlumdur: *Dungeon-and-Dragons-like* və s. Bu misaldakı *-like* suffiksi qeyri-ədəbi söz yaradıcılığı elementlərinə nümunədir.

Bu qrupa həmçinin kompüterin, aparatın, proqram təchizatının müxtəlif slenqizmlərlə adlandırılması da aiddir, məsələn, *confuser, fuzzball, beige toaster*. Bu misallar kompüterə aid obrazlı və ekspressiv sözlərlə adlandırılmasına bir nümunədir.

İngilis kompüter slenqində bəzi vahidlər kompüterin müəyyən keyfiyyətinə görə fərqləndirilməsini bildirmək üçün əlavə məna yükü daşıyırlar. Məsələn, *toaster-box, bitty-box* ‘köhnə, kiçik kompüter’, *home-box* ‘ev kompüteri’. Onların leksik mənaları kompüter termini ilə uyğun gəlir.

Beşinci qrupa aid olan slenqizmlər dünya şəbəkəsinə - internetə xas olan anlayışları ifadə edir: *cobweb site* ‘köhnə, yeniləşməyən sayt’, *whack-a-mole windows, spam* ‘İnternetdə müxtəlif lazımsız reklam növləri’ və s.

İnternet nisbətən yeni bir sahə olduğu üçün bu qrupa əsasən yeni yaranmış sözlər, yəni slenq-neologizmlər aid edilir. Bəzi hallarda bu sözlər həm yeni, həm də terminologiyada analoqu olmayan yeganə sözlər olur. Məsələn, *ICQ (I seek you), IRC (< Internet Relay Chat), firewall* və s.

Yuxarıda göstərilmiş tematik qruplardan əlavə, ingilis kompüter slenqində “Kompüter cinayətləri” tematik qrupu altında da bəzi söz və ifadələr birləşir (7). Bu qrupa aid olan slenqizmlər məzmunca yad kompüterlərə qeyri-qanuni daxil olma və virusların yayılması problemi ilə bağlıdır. Bu qrupa daxil olan müxtəlif qrammatik kateqoriyalı vahidlər şaxələnmiş bir sistem təşkil edirlər:

a) yad sistemlərə qeyri-qanuni şəkildə daxil olanlar: *dark-side hacker* ‘sayt oğrusu’ *samurai* ‘qanuni sayt açan’ və s.

b) internet saytlarını və sistemlərini qeyri-qanuni açmaq üçün proqramlar: *sniffers, exploits, attacks, icebrakers*. Bu proqramlar arasındakı fərq onların təyinatında və yad şəbəkəyə və ya sistemə daxil olmaq üsulundadır.
c) qeyri-qanuni daxil olma – *social engineering, team attack* və sistemin qəsdən korlanması – *crashing a kernel, smashing a stack, getting root* üsulları.
d) kompüter virusları – *Trojan horse, Worm*.

Bu qrupa daxil olan elementlər müxtəlif qiymətləndirici konnotasiyaya malikdir ki, bu konnotasiya da müsbət – *samurai*, mənfi – *dark-side hacker* və kinayəli – *script kiddie* çalarlar daşıyır.

İngilis kompüter slenqində elə söz və ifadələr də vardır ki, onlar iş və vəzifə adlarını bildirirlər. Məsələn, *suit, droid* – məmur, *mangler, veeblefester* - idarəçi, *lion food* – İBM-in idarə heyəti və s.

Qeyd etmək lazımdır ki, bu slenqizmlər, bir növ, peşə adlarını bildirsələr də, peşə slenqi və ya peşə jarqonlarına aid deyillər.

İngilis danışıq dilində müxtəlif peşə və qrup jarqonları ilə ümumi slenq arasında qarşılıqlı mübadilə müşahidə edilir. Kompüter slenqindəki bir çox elementlər dilin başqa qeyri-ədəbi sahələrindən keçmişdir, eləcə də kompüter slenqi özü başqa dil sistemləri üçün yeni sözlər mənbəyi kimi nəzərdən keçirilir. Məsələn, *down* –işsiz, *crash (v)* – ‘sönmək’< hər hansı bir mexanizm və cihaz haqqında və s.

Kompüter slenqinin xüsusi bir qrupunu akronimlər təşkil edir. Bu, mənşəyinə və yaranma üsuluna görə mürəkkəb şəkildə ixtisar olinmuş ingilis sözləridir:

*AFAIK – as far as I know* ‘bildiyim qədər’,
*BTW – by the way* ‘yeri gəlmişkən’,
*FYI – for your information* ‘məlumatınız olsun ki’,
*IMHO – in my humble opinion* ‘mənim fikrimcə’,
*IOW – in other words* ‘başqa sözlə’,
*TTUL – talk to you later* ‘sonra danışarıq’.

Bu nümunələr kompüter slenqinin digər bir vacib xüsusiyyətini nümayiş etdirir. Kompüter istifadəçilərinin ünsiyyət şəraiti onlarda informasiyanı daha sürətlə alıb-verməyə ehtiyac yaradır və buna görə də onlar dil vasitələrini daha da sadələşdirir, minimallaşdırır və standartlaşdırırlar.

Mürəkkəb yolla qısaldılmış sözlərin yaranması üsulu da maraqlıdır ki, bu üsul zamanı söz ona oxşar şəkildə səslənən hərflərlə və ya rəqəmlərlə əvəz edilir. Məsələn, *IOU < I owe you* ‘sənə borcluyam’, *4u < for you* ‘sənin

üçün’, *2U < to you* ‘sənə’, *CU < see you* ‘sonra görüşərik’, *L8R < later* ‘sonra’, *OIC < Oh, I see* ‘ başa düşürəm’ və s. Bu cür ixtisarlar hətta ifadənin ortasında belə işləndikdə böyük hərflərlə yazılır.

İngilis kompüter slenqini nümunələr əsasında təhlil edərək onların funksional xüsusiyyətlərini və yaranma mənbəyini müəyyən etmək daha asan və maraqlıdır. Məsələn: *I’ve bookmarked the CNN homepage as I use it regularly to get the latest news < put it in a list of websites I can access immediately.* ‘Mən CNN kanalınının səhifəsini əsas səhifə kimi seçmişəm, çünki ən son məlumatları almaq üçün bu səhifədən tez-tez istifadə edirəm’ < ‘onu mənim tez keçid edə biləcəyim saytlar sırasına qoy’[7]. Bu cümlədəki “*bookmark”* sözü kitabın lazım olan yerini itirməmək üçün hansısa vərəqini qatlamaq mənasını verir. Bu mənaya analoji olaraq həmin söz İnternetdə hansısa səhifəni yadda saxlamaq mənasını verir. Bu prinsipə uyğun olaraq *page* ‘səhifə’ (bu cümlədə *homepage ‘əsas səhifə’*) də kompüter slenqi kimi işlənmişdir.

Başqa bir misal: *She must have changed her e-mail address, the email I sent her bounced (came back to me). ‘O, elektron poçt ünvanını dəyişməlidir, ona göndərdiyim mail geri qayıtdı’* [14, s.90-105.]. *Bounce* slenqizmi kompüter dilinə maliyyə sahəsindən keçmişdir. Maliyyə sahəsində bu termin ‘ödəniş edənin hesabında pul olmadığından çekin qaytarılması’ deməkdir. Bu termin kompüter jarqonunda sənədlərin, məktubların qaytarılması prosesinə uyğun olaraq geniş şəkildə işlədilir. Burada terminin bir sahədən o biri sahənin jarqonuna keçməsi aydın şəkildə müşahidə olunur.

Müasir ingilis dili, xüsusilə də danışıq dili, kompüter slenqinin daim yeniləşməsinə dair külli miqdarda nümunələrlə zəngindir. Bu yeniləşmə kompüter texnologiyasının inkişafı, eləcə də dilin özünün inkişafı ilə əlaqədardır.

Kompüterlər həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Kompüterlərlə bərabər onlardan istifadə edənlərin dili, bu sahədə yeni yaranmış və yaranmaqda olan söz və ifadələr də həyatımıza daxil olmuşdur. Bu, təbii bir prosesdir – yeni texnologiyalar gündəlik istifadəyə daxil olurlar, ümumişlək dil isə yeni anlayışları izah edəcək leksikaya malik deyildir. Bütün bunlar isə yeni dil vahidlərinin yaranmasına gətirib çıxarır.

Beləliklə, kompüter slenqi – dilin qeyri-rəsmi təbəqəsidir və o, kompüter mütəxəssislərinin peşə fəaliyyəti sahəsindəki obyektləri bildirən sözlərdən ibarətdir. İngilis dilində kompüter slenqi – kompüterlə əlaqəsi olan insanların işlətdikləri adi dil vahidləridir.

Slenqizmlərin əksəriyyəti sözlərin başqa üslubi laylardan keçməsi nəticəsində əmələ gəlir. Çox zaman sözlərin bir üslubi laydan digərinə keçidi tədricən, termindən slenqizmə doğru gedərək baş verir. Terminlər professio-

nalizmlərin, sonra jarqonizmlərin və nəhayət, slenqizmlərin üslubi çalarlılığını əldə edirlər.

Məsələn, terminlərin professionalizmə çevrilməsinə nümunə olaraq kompüterin, "materinka"sını, başqa sözlə, "ana hissə"sini (rus dilində: материнка) göstərmək olar ki, bu söz ingilis dilindəki "*motherboard*" termindən yaranmışdır. Burada professionalizmə keçid terminin hərfi mənası əsasında yaranmışdır. Əslində sözün kökü olan "*mother*"-nın izahı "*acting as or providing parental stock – used without reference to sex*" (Webster's Dictionary) kimi verilir, ona görə də ingilisdilli cəmiyyət üçün anlaşıqlıdır. Eyni zamanda, bu termindən yaranmış "materinka" professionalizmi hamı üçün deyil, məhz dar çərçivədə olan insanlar üçün, yəni kompüterlə əlaqəsi olan insanlar üçün anlaşıqlıdır. Bu da "materinka" sözünün professionalizmlərə aid olduğunu göstərir və, beləliklə də, sözün hərfi məna əsasında terminlərdən professionalizmlərin sırasına keçməsini müşahidə edirik [14,s.90-105].

Professionalizmlərin və terminlərin slenqizmlərə çevrilməsi halları dildə az rast gəlinir, lakin jarqonizmlərin slenq sözə çevrilməsi tez-tez müşahidə olunan bir haldır. Yenə də qeyd edək ki, kompüter slenqi – ilkin olaraq kompüter istifadəçiləri qrupu tərəfindən işlədilən, lakin sonradan geniş ümumişləklik qazanmış və normativ ədəbi dilin sözlərinə sinonimik olan dil vahidləridir. Deməli, slenqizmlər jarqonizmlərdən yalnız o xüsusiyyətlə fərqlənirlər ki, slenq sözlər geniş ümumişləklik qazanmış sözlərdir, jarqonizmlər isə yalnız müəyyən qrup daxilində anlaşılır. Məsələn, *mouse* 'siçan < idarəetmə qurğusu' professionalizmi jarqon vasitəsilə ümumişlək slenqizmə keçmişdir və hal-hazırda ədəbi dilə keçməyə meyllidir.

İngilis kompüter slenqində bir çox slenqizmlər metaforikləşmə nəticəsində yaranmışlar, məsələn, *take off* 'lazım olmayan informasiyanın kompüterin yaddaşından silmək', *buzz* 'modem vasitəsilə əlaqə yaratmaq', *to kill* 'hər hansı bir əməliyyatı kəsmək', 'dayandırmaq', *to click* 'səs təqlidi nəticəsində yaranmışdır: siçanın düymələrini basmaq' , *iron* 'kompüter mənasında' (burada metonimiyadır).

Sonda onu da qeyd etmək lazımdır ki, kompüter sahəsində familyar slenqizmlərin işlədilməsi insana imkanca ondan üstün olduğu görünən kompüterlər üzərində şüuraltı şəkildə öz üstünlüyünü hiss etmək üçün lazımdır. İnformasiya texnologiyası aləminə aid olan realiləri məzəli slenqizmlərlə adlandıran kompüter istifadəçisi kompüteri özündən aşağı səviyyəyə qoyur və onu, bir növ özünə tabe edir. Bu məqam istifadəçi insanla kompüterin sonu görünməyən imkanları arsında olan, bir növ, "konfliktin" özünəməxsus ifadəsidir.

Kompüter slenqində obrazlı vasitələrin, əsasən də metaforanın, daha çox işlədilməsi onunla izah olunur ki, hər bir dilin leksikasının əsasında metafora (ümumiyyətlə, obraz) durur. Lakin müasir ədəbi dildə bir çox sözlər yalnız diaxronik planda metaforik mənaya malikdirlər və onu mürəkkəb etimoloji tədqiqatlar nəticəsində tapmaq olar. Kompüter slenqi isə nisbətən gənc bir sahədir, o, dilin miniatür bir modelidir və buna görə də ona xas olan bir çox xüsusiyyətləri təkrar edir. Slenqin inkişafının indiki mərhələsində obrazlılıqdan geniş istifadə gələcəkdə metaforik mənaların sabitləşməsinə və slenqin, inkişaf edərək, dilin müstəqil və sabit bir üslubuna çevrilməsinə gətirib çaxaracaqdır.

**İstifadə olunmuş ədəbiyyat**


1. Chamber's Twentieth Century Dictionary, Edinburgh London, 1965.
2. Dobbins A.C., The Language of the Cultivated, in: Harbrace Guide to Dictionaries 1966.
3. Flexner S.R., Preface, Dictionary of American Slang. New York, 1976.
4. Grattan J.H., On Slang, Cant and Jargon, in: Transactions of the Yorkshire Dialect Society, vol. 5, Yorkshire: 1982.
5. Partridge E. A Dictionary of Slang and Unconventional English, vol. 2, London, 1967.
6. Хомяков В.А. Введение в изучение сленга – основного компонента английского просторечия. Вологда, 1971.
7. New Zealand Oxford Dictionary. Edited by Tony Deverson and Graeme Kennedy. Oxford University Press, 2005.
8. Забело И.В. Некоторые особенности тематической организации лексики компъютерного жаргона, // Филологические науки, № 6, Москва, 2001, с.40-45
9. www.english.language.ru/slang
10. www.oup.com
11. www.peevish.co.uk/slang
12. www.urbanenglish.org/
13. www.wikipedia.org/slang
14. www.worldwidewords.org


**Nergiz Salimova**

**Summary**

**Computer Slangs in Modern English**

The article deals with the usage of computer slangs. The words in the computer field are primarily intended to communicate between people who have the same

profession, that is, programmers or simply people who use the computer. At the same time, they are synonymous with vocational terms, but differ from those terms by their emotional tone. Secondly, computer slangs only mean that in the computer world, when a non-computer space is used, their meaning is changed and others can be understood. Thirdly, in this lexicon vulgar words are also encountered.

**Наргиз Салимова**

**Резюме**

**Компьютерные сленги в современном английском языке**

Настоящая статья посвящена проблеме использования компьютерных сленгов. Слова в компьютере, в первую очередь, предназначены для общения между людьми, которые имеют одинаковую профессию, то есть программистами или просто пользователями компьютера. В то же время они являются синонимами профессиональных терминов, но отличаются от терминих своими эмоциональными оттенками. Во-вторых, компьютерные сленги означают только то, что при использовании некомпьютерного пространства их значение меняется, и они могут быть поняты другими. В-третьих, в этой лексике встречаются и вульгаризмы.

*Rəyçi: fil.f.d.S.Səlimova*

*Redaksiyaya daxil olub: 16.06.2020*

Çapa imzalanıb: 15.08.2020.
Format: 70x100 1/16. Qarnitur: Times.
Həcmi: 7,25 ç.v. Tiraj: 300.

Redaksiyanın ünvanı:
Az1014, Bakı şəhəri, R.Behbudov küçəsi, 134. Azərbaycan Dillər Universiteti,
Elm şöbəsi, 302-ci otaq. Tel: +99412 441 22 78 (+257), +99450 486 97 09
Email: adu.dilveedebiyyat@mail.ru